## “Məclisi-üns”

“Məclisi-üns” (“Dostluq məclisi”) ədəbi məclisi 1864-cü ildə XIX əsr Azərbaycanın ən mühüm mədəniyyət mərkəzlərindən olan Şuşa şəhərində ensklopedik bilik sahibi kimi tanınan Mirzə Əbülqasımın mədrəsəsində təçkil olunmuşdur. İlk təşəbbüsçüləri Mirzə Əbülqasımın yetişdirməsi və davamçısı həm şair, həm də tarixçi olan Mirzə Rəhim Fəna və klassik üslubda gözəl şeirlər yazan Hacı Abbas Agah idi. təşəbbüsü ilə təşkil edilmişdir. Məşğələləri şair Hacı Abbas Agahın evində keçirilən bu məclisin əvvəllər dörd üzvü var idi. Lakin 1872-ci ildə Xurşidbanu Natəvanın məclisi öz himayəsinə götürməsi onun məşğələlərini daha da canlandırmış, məclis üzvlərinin sayı çoxalıb otuza yaxınlaşmış və şöhrəti Qarabağın hüdudlarını aşmışdır. Məclis 60-cı illərdən Natəvanın iştirakı olmadan fəaliyyətə başlasa da əsas inkişafı onun rəhbərlik etdiyi illərə aiddir.İlk illərdə Mirzə Rəhim Fəna, Hacı Abbas Agah, Məmo bəy Məmai, Mirzə Ələsgər Növrəsdən ibarət olan məclisə sonradan Mirzə Həsən Yüzbaşov, Məşədi Nəsir Lövhi, Məhəmmədəli bəy Məxfi, Natəvanın oğlanları, Cəfərqulu xanın nəvəsi Hüseyn ağa Cavanşir , XIX əsrin ən mükəmməl təzkirələrindən biri olan “Riyazül-aşiqin”in müəllifi olan Müctəhidzadə Məhəmməd ağa Müştəri də qoşulmuşdular. “Məclisi-üns”də tanınmış Qarabağ şairləri ilə yanaşı məşhur xanəndə və sazəndələr də iştirak etmişlər.